*Beynəlxalq müşahidəçilərin rəyi:*

# «Azərbaycanda prezident seçkiləri azad, ədalətli və şəffaf keçirildi»

### Seçki prosesi yüksək səviyyədə təşkil olunmuşdu



**Verolyub ARSİÇ,**
***Serbiya parlamentinin sədr müavini:***

- Azərbaycanda prezident seçkiləri azad və ədalətli şəkildə keçirilib. Seçicilərə hər hansı təzyiq müşahidə olunmayıb. Seçki prosesinin tam qanunauyğun şəkildə keçməsi münasibətilə Azərbaycan xalqını təbrik edirəm.

Bu fikirləri Azərbaycanda 11 aprel prezident seçkilərini müşahidə edən Serbiya parlamentinin sədr müavini Verolyub Arsiç Bakıda keçirdiyi mətbuat konfransında bildirib. O qeyd edib ki, məntəqələrdə apardıqları müşahidələr zamanı hər hansı problemin şahidi olmayıblar. Proses yüksək səviyyədə təşkil olunmuşdu. Ümumiyyətlə, seçkilər beynəlxalq standartlara uyğun şəkildə keçirilib.

### Azərbaycanda açıq və şəffaf seçkilər keçirildi



**Devid MORRİS,**
***Böyük Britaniya İcmalar Palatasının üzvü:***

- Biz yeddi seçki məntəqəsində olduq. Heç bir qanun pozuntusuna rast gəlmədik. Seçki prosesi yaxşı təşkil olunmuşdu.

Bu sözləri Azərbaycanda prezident seçkilərini müşahidə edən Böyük Britaniya İcmalar Palatasının üzvü Devid Morris aprelin 12-də keçirdiyi mətbuat konfransında söyləyib.

O bildirib ki, seçkilərin qanunauyğun şəkildə təşkil edilməsi üçün istifadə olunan metodlar bütün seçki məntəqələrində eyni idi. "Əminliklə deyə bilərik ki, Azərbaycanda açıq və şəffaf seçkilər keçirildi. Yerli müşahidəçilər və media ilə də görüşdük. Hər hansi qanun pozuntusunun baş verdiyi qeydə alınmadı".

Seçkilərin şəffaf və ədalətli keçdiyini vurğulayan Lordlar Palatasının üzvü Devid Evans da seçki məntəqələrində müşahidə apardıqlarını, səsvermənin keçirilməsi üçün yaxşı şəraitin yaradıldığını qeyd edib.

### Səsvermədə gənclərin xüsusi fəallığını müşahidə etdik



**Predraq KOJUL,**
***Bosniya və Herseqovina-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri:***

- Prezident seçkilərinin yüksək səviyyədə keçirilməsi münasibətilə Azərbaycan xalqını təbrik edirəm. Seçkiləri izləmək üçün bütün beynəlxalq müşahidəçilərə bərabərhüquqlu imkan yaradılmışdı. Səsvermədə gənclərin xüsusi fəallığını müşahidə etdik. Bu fikirləri Azərbaycanda keçirilən prezident seçkilərini izləyən Bosniya və Herseqovina-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Predraq Kojul müşahidələrin yekunlarına dair Bakıda keçirilən mətbuat konfransında söyləyib.

O, seçkilərin azad və şəffaf şəkildə təşkil edildiyini bildirərək deyib: "Biz 11 seçki məntəqəsində müşahidə missiyasını həyata keçirmişik. Seçicilərin öz iradələrini sərbəst ifadə etmələri üçün maksimum şərait yaradılmışdı. Həm komissiya üzvləri, həm müşahidəçilər, həm də seçicilərlə təmasda olduq. Təşkilatçılıq yüksək səviyyədə idi. Fiziki məhdudiyyəti olan insanlara səsvermədə iştirak etmələri üçün yaradılan şəraiti də müsbət qiymətləndirirəm".

### Azərbaycandakı seçici fəallığı heç Avropada da müşahidə olunmur



**Valeri SİMULİK,**
***Baltik Assambleyasının prezidenti:***

- Baltik Assambleyasının və Litva parlamentinin nümayəndə heyəti aprelin 11-də 30 məntəqədə müşahidə apardılar. Seçkilərin qanunauyğun şəkildə keçirildiyini müşahidə etdik. Bu fikirləri Litva nümayəndə heyətinin rəhbəri, Baltik Assambleyasının prezidenti Valeri Simulik mətbuat konfransında bildirib. O qeyd edib ki, seçicilər sərbəst şəkildə seçki məntəqələrinə gələrək heç bir təzyiqlə üzləşmədən öz namizədlərinə səs verirdilər.

Seçki prosesinin tam qanunauyğun, şəffaf keçirildiyini deyən beynəlxalq müşahidəçi Azərbaycandakı seçici fəallığının heç Avropada da müşahidə olunmadığını bildirib.

### Səsvermə zamanı təhlükəsizlik tədbirləri yüksək səviyyədə təşkil olunmuşdu



**Necdet ÜNÜVAR,**
***Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri:***

- Dünən günboyu bir neçə seçki məntəqəsində səsvermə prosesini izlədik. Səsvermə zamanı təhlükəsizlik tədbirləri yüksək səviyyədə təşkil olunmuşdu. Bunu prezident seçkilərini müşahidə edən Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Necdet Ünüvar aprelin 12-də keçirdiyi mətbuat konfransında deyib.

Seçkilərin azad və demokratik mühitdə keçirildiyini bildirən N.Ünüvar diqqətə çatdırıb ki, səsvermə zamanı hər hansı problem yaşanmayıb. O deyib: "Seçkilərdə qadınlar kişilərlə müqayisədə daha fəal idilər. Prezident seçkilərində qələbə münasibətilə İlham Əliyevi təbrik edirik və Azərbaycanın daha da inkişaf etməsini arzulayırıq".

### Seçkilərin nəticələri Azərbaycan xalqının iradəsini əks etdirir



**Maryo DEVİD,**
***Mərkəzçi Demokrat Beynəlxalq Hərəkatının Portuqaliyadan olan nümayəndəsi:***

- Prezident seçkilərinin nəticələri Azərbaycan xalqının iradəsini əks etdirir. Bu sözləri Azərbaycanda prezident seçkilərini izləyən Mərkəzçi Demokrat Beynəlxalq Hərəkatının müşahidələrinin mətbuat konfransında hərəkatın Portuqaliyadan olan nümayəndəsi Maryo Devid deyib.

O bildirib ki, çoxsaylı beynəlxalq müşahidəçinin ölkə ərazisində seçki prosesini sərbəst şəkildə izləməsi üçün hər cür şərait yaradılmışdı və bu da seçkilərin şəffaflığına öz töhfəsini verdi. Eyni zamanda iki xarici və iki yerli araşdırma şirkəti səsvermə ərzində "exit-poll" keçirdi.

Müsbət məqam odur ki, namizədlər heç bir məhdudiyyət olmadan təşviqat kampaniyası aparıblar. Səsvermə günü seçici fəallığı da yüksək idi. Bu, seçicilərin seçkiyə olan marağının və öz fikirlərini sərbəst şəkildə ifadə etmək istəklərinin göstəricisidir. Ümumilikdə namizədlərin irəli sürülməsi və qeydiyyatı zamanı heç bir pozuntu və şikayət faktı qeydə alınmayıb. Seçkilərin nəticələri Azərbaycan xalqının iradəsini əks etdirir.

### Seçkilərdə şəffaflığın təmin olunmasına xidmət edən yeniliklər gördük



**Vladimir VİTİUC,**
***Moldova parlamenti sədrinin müavini:***

- Seçkilərin hazırlanması və təşkili prosesindən danışsaq deyə bilərəm ki, səsvermə ən yüksək səviyyədə keçdi. Bütün vətəndaşlara bərabər şərait yaradılmışdı və onlar öz iradələrini ifadə etmək imkanı qazanmışdılar. Biz şəffaflığın təmin edilməsinə xidmət edən yeniliklər də gördük. Bu mənada Azərbaycanın təcrübəsi digər ölkələr üçün nümunədir. Bu fikirləri prezident seçkilərini müşahidə edən Moldova parlamenti sədrinin müavini Vladimir Vitiuc aprelin 12-də keçirdiyi mətbuat konfransında söyləyib.

Mərkəzi Seçki Komissiyasının və seçkilərə cavabdeh olan müvafiq qurumların seçki prosesinə ciddi yanaşdığını deyən V.Vitiuc bildirib ki, seçkilər zamanı beynəlxalq müşahidəçilər üçün də yaxşı şərait yaradılmışdı.

### Azərbaycanda prezident seçkiləri demokratik keçdi



**Mişel TEĞO,**
***fransalı müşahidəçi:***

- Fransalı müşahidəçilər Azərbaycanda keçirilən prezident seçkilərinə dair bəyanat yayıblar. Müşahidəçi Mişel Teğo seçki prosesinin qanunauyğun şəkildə keçirildiyini söyləyib. O bildirib ki, səsvermə proseduru Avropa standartlarına cavab verir.

"Görüşdüyümüz digər müşahidəçilər də bizə heç bir qayda pozuntusu ilə rastlaşmadıqlarını, səsvermə prosesinin seçicilərə heç bir kənar təzyiq olmadan normal keçdiyini müşahidə etdiklərini dedilər. Seçkilər tam şəffaf keçdi. İlkin nəticələr "exit-poll"un nəticələri ilə üst-üstə düşdü. Bu seçkilər Azərbaycanda demokratik prinsiplərə uyğun atılan növbəti addım idi. Biz Azərbaycanın bu cür səyləri davam etdirməsini alqışlayırıq", - deyə müşahidəçi qeyd edib.

### Seçkilər Avropa standartlarına uyğun təşkil edilmişdi



**Viktor PANTU,**
***Rumıniya Deputatlar Palatasının üzvü:***

Dünən Bakı şəhərində bir sıra seçki məntəqələrində müşahidələr apardıq. Seçkilər Avropa standartlarına uyğun təşkil edilmişdi. Bu fikirləri Rumıniya Deputatlar Palatasının üzvü Viktor Pantu müşahidələrinin yekunlarına dair keçirdiyi mətbuat konfransında deyib.

Bir sıra Avropa ölkələrində seçkiləri müşahidə etdiklərini deyən rumıniyalı deputat seçki məntəqələrində veb-kameraların quraşdırılmasının səsvermə prosesində şəffaflığı təmin etmək baxımından çox önəmli olduğunu bildirib. Deputatlar Palatasının üzvü Azərbaycanın seçki prosesində texnoloji yeniliklərin tətbiqini yüksək qiymətləndirib.

### Seçkilərdə qeydə aldığımız bəzi yenilikləri Fransada da tətbiq etmək niyyətindəyik



**Yasin LAMUR,**
***Fransa parlamentinin üzvü:***

- Biz təxminən 15 seçki məntəqəsində səsvermə prosesini izlədik. Təşkilatçılıq yüksək səviyyədə idi. Qaydalara tam riayət olunurdu. Seçki məntəqələrinin sədrləri və üzvləri seçki prosesi barədə təlimatlandırılmışdılar. Seçicilərin fəallığını da müşahidə etdik. Bəzi yeniliklərin şahidi olduq ki, onları gələcəkdə Fransada tətbiq etmək niyyətindəyik. Məsələn, məntəqələrdə veb-kameraların quraşdırılması vətəndaşlara evlərindən seçkiləri izləməyə imkan verir. Qeydiyyatla bağlı məsələyə gəldikdə, uzaqda yaşayanlar olduqları yerdən arayış təqdim etməklə yaxın məntəqələrdə səs verə bilirdilər. Fransada isə bu, mümkün deyil. Amma dünən gördük ki, burada yaradılan şərait nəticəsində xüsusən də tələbələr bu çətinliklə üzləşmədilər. Bu fikirləri prezident seçkilərini müşahidə edən Fransa parlamentinin üzvü Yasin Lamur aprelin 12-də keçirdiyi mətbuat konfransında söyləyib.

Yasin Lamur deyib: "Dünən bir jurnalist mənə sual verdi ki, niyə Fransadan gələnlər burada bir söz, Fransaya qayıdanda isə başqa söz deyirlər. Mən cavab verdim ki, bu, hansısa jurnalistin mövqeyidir. Fransa xalqı Azərbaycanın dostudur. Mən burada söylədiklərimi Fransada da təkrarlayacağam".

### Prezident seçkiləri şəffaf və ədalətli şəkildə keçib



**Yuha KORKEAOYA,**
***finlandiyalı müşahidəçilər qrupunun nümayəndəsi:***

- Azərbaycanda prezident seçkiləri beynəlxalq normalara uyğun, şəffaf və ədalətli şəkildə keçib. Bu fikri prezident seçkilərini izləyən finlandiyalı müşahidəçilər qrupunun nümayəndəsi Yuha Korkeaoya missiyanın müşahidələrinin yekunlarına dair mətbuat konfransında deyib.

Finlandiyalı müşahidəçi qeyd edib ki, Azərbaycanda səsvermə prosesi qanunauyğun şəkildə aparılıb. Seçki məntəqələrinin yaxınlığında kampaniya aparılmadı. Məntəqələrə sərbəst və məhdudiyyətsiz giriş var idi. Seçki prosesində heç bir kənar müdaxilə qeydə almadıq. Seçki prosesinin çoxsaylı müşahidə missiyaları tərəfindən izlənilməsi şəffaflığın artırılmasına öz töhfəsini verib. Müşahidəçilər seçki qutularına maneəsiz nəzarət edə bilirdilər.

### Seçkilərdə heç bir qanun pozuntusuna rast gəlmədik



**Talaybek MASABİROV,**
***Qırğızıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbərinin müavini:***

- Qırğızıstan Azərbaycan xalqını İlham Əliyevin prezident seçilməsi münasibətilə təbrik edir. Dünən biz məntəqələrdə olduğumuz zaman heç bir qanun pozuntusuna rast gəlmədik. Xalqın əhvali-ruhiyyəsi yüksək idi. Bu sözləri prezident seçkilərini müşahidə edən Qırğızıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbərinin müavini Talaybek Masabirov aprelin 12-də keçirdiyi mətbuat konfransında söyləyib.

Talaybek Masabirov bildirib ki, 10-a yaxın seçki məntəqəsində olub və seçicilər öz iradələrini azad şəkildə ifadə ediblər. Seçkilərin keçirilməsi üçün yaxşı şərait yaradılmışdı.

Seçkilərin şəffaf və ədalətli keçdiyini vurğulayan Talaybek Masabirov Azərbaycan xalqına sülh və tərəqqi arzulayıb.

### Azərbaycanda prezident seçkiləri demokratik keçdi



**Yirji VALENTA,**
***Çexiya deputatlar palatasının üzvü:***

- Biz Azərbaycanda keçirilən seçkiləri müşahidəçi missiyası çərçivəsində 14 məntəqədə izlədik. Seçkilər demokratik keçdi. Bu sözləri prezident seçkilərini müşahidə edən Çexiya deputatlar palatasının üzvü Yirji Valenta aprelin 12-də keçirdiyi mətbuat konfransında söyləyib.

Yirji Valenta deyib: "Mən Prezident seçilən İlham Əliyevə yeni fəaliyyəti dövründə uğurlar və cansağlığı arzulayıram. Azərbaycana gələcək inkişaf diləyirəm".

### Seçkilər beynəlxalq standartlara uyğun keçirildi



**Vokşi ALBANA,**
***Cənub-Şərqi Avropa ölkələrindən olan qadınlardan ibarət Seçki Monitorinq Qrupunun müşahidə missiyasının üzvü:***

- Aprelin 11-də prezident seçkilərində səsvermə prosesi sakit, kənar müdaxilələr olmadan həyata keçirilib. Bu barədə Azərbaycanda prezident seçkilərini izləyən Cənub-Şərqi Avropa ölkələrindən olan qadınlardan ibarət Seçki Monitorinq Qrupunun müşahidə missiyasının üzvü Vokşi Albana müşahidələrin yekunlarına dair keçirilən mətbuat konfransında deyib.

Vokşi Albana qeyd edib ki, baş çəkdikləri seçki məntəqələrində səsvermənin sərbəst şəkildə aparıldığını müşahidə ediblər. O deyib: "Biz GISDI qeyri-hökumət təşkilatının böyük müşahidə missiyasının tərkib hissəsi olaraq seçkiləri müşahidə etdik. Səsvermə prosesi sakit, kənar müdaxilələr olmadan həyata keçirildi. Qanun pozuntusu hallarına rast gəlmədik. Səsvermə prosesində məntəqələrin daxilində və ya yaxınlığında kənar şəxslərin və polislərin olmasını müşahidə etmədik. Səsvermə ümumilikdə şəffaf keçib. Seçkilər beynəlxalq standartlara uyğun idi".

### Seçkilərin yüksək səviyyədə təşkili üçün həqiqətən də böyük iş görülmüşdü



**Abdalı NURALİYEV,**
***Qazaxıstan Senatının üzvü:***

- Aprelin 11-də biz bir neçə seçki məntəqəsində olduq. Seçkilərin yüksək səviyyədə təşkili üçün həqiqətən də böyük iş görülmüşdü. Hər yerdə gözəl ab-hava var idi. Bu fikirləri Azərbaycanda prezident seçkilərini müşahidə edən Qazaxıstan Senatının üzvü Abdalı Nuraliyev aprelin 12-də keçirdiyi mətbuat konfransında söyləyib.

A.Nuraliyev deyib: "Səsvermənin normal keçirilməsi üçün lazımi tədbirlər görülmüşdü. Məntəqələrdə səsvermə prosesi tam qanunauyğun keçirildi, heç bir pozuntu halı olmadı. Seçkilər tam şəffaf və azad şəraitdə keçdi".

***AZƏRTAC***

Azərbaycan.- 2018.-13 aprel- S.11.